**Ölkədə işsizliyin səviyyəsi ildən-ilə azalır**

Azərbaycanda son illər ərzində uğurla reallaşdırılan inkişafyönümlü dövlət proqramlarının başlıca hədəflərindən biri də işsizliyin səviyyəsinin aşağı salınmasıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin rəis müavini Şahbaz Xələfov qəzetimizə müsahibəsində respublikada bu sahədəki mövcud vəziyyət və işsizliyin təmini ilə bağlı həyata keçirilən tədbirlər barədə geniş məlumat vermişdir.

***- Şahbaz müəllim, ölkədə məşğulluq sahəsində mövcud vəziyyəti necə xarakterizə edirsiniz?***

- Hazırda respublikada iqtisadi fəal əhalinin sayı 4 milyon 634 min nəfərdən yuxarıdır. Onların da 4 milyon 388 min nəfərini məşğul əhali təşkil edir. 250 minə yaxın vətəndaş işsiz sayılır və bu da iqtisadi fəal əhalinin cəmi 5,4%-i deməkdir. Ümumilikdə, Qərb ölkələri ilə müqayisədə Azərbaycanın əmək bazarındakı mövcud vəziyyət qənaətbəxşdir - işsizliyin səviyyəsi aşağıdır. Son illər respublikada yeni iş yerlərinin yaradılması istiqamətində həyata keçirilən ardıcıl tədbirlər nəticəsində işsizliyin və yoxsulluğun səviyyəsi nəzərəçarpacaq dərəcədə aşağı düşüb.

Ötən əsrin 90-cı illərində Azərbaycanda işsizliyin səviyyəsi təxminən 20%, 2003-cü ildə isə 10,6% təşkil edirdi. Ötən 9 ildə respublikada işsizliyin səviyyəsinin 5,4%-ə düşməsi kifayət qədər normal göstəricidir. Bu nöqteyi-nəzərdən, Azərbaycan MDB ölkələri arasında ən yaxşı göstəriciyə malikdir. Əgər vətəndaşlarımız bir zamanlar iş axtarmaq üçün Rusiya və digər MDB ölkələrinə üz tuturdularsa, son illərdə əks proses başlayıb. Nəinki MDB-dən, ümumilikdə dünyanın bir çox ölkələrindən işaxtaranlar iqtisadi baxımdan cəlbedici məkan kimi respublikamıza üz tuturlar.

Vaxtilə iş tapmaq üçün başqa ölkələrə gedənlərin son illərdə geri qayıtması həm də respublikamızda yüksək gəlirli iş yerlərinin sayının çoxluğu ilə bağlıdır. MDB Statistika Komitəsinin məlumatına əsasən, Azərbaycan hazırda orta aylıq əməkhaqqının səviyyəsinə görə yalnız Rusiya və Qazaxıstandan geri qalır. Bunun da obyektiv səbəbləri var: həmin respublikalardan fərqli olaraq 90-cı illərin əvvəllərində Azərbaycan müharibə ilə üzləşib, torpaqlarımızın 20%-i işğal edilib, 1 milyondan çox soydaşımız didərgin düşüb. Yalnız Dağlıq Qarabağda 300 mindən çox iş yerini itirmişik. Ermənistandan 200-dən çox soydaşımızın deportasiya edilməsi də əmək bazarına mənfi təsirini göstərib. Lakin bu kimi qlobal problemlərə baxmayaraq, Azərbaycan dövləti uğurlu iqtisadi islahatlar nəticəsində vətəndaşlarını iş yerləri ilə təmin edə bilib. Ölkədə işsizliiyn səviyyəsi ildən-ilə aşağı düşür.

***- İşəgötürənlərin işçilərlə əmək müqavilələri bağlamaması səbəbindən respublikamızda muzdla işləyənlərin sayının da reallığa adekvat olmadığı bildirilir...***

- Dövlət Statistika Komitəsinin məlumatına görə, 4 milyon 388 min məşğul əhalinin 1 milyon 368 mini muzdla işləyir. Lakin son aylarda respublikada qeyri-leqal məşğulluğun aradan qaldırılması istiqamətində həyata keçirilən təsirli tədbirlər nəticəsində bu göstəricinin müsbətə doğru dəyişəcəyi şübhəsizdir. Xüsusən də Vergilər Nazirliyi və Dövlət Əmək Müfəttişliyi iş yerlərinin rəsmiləşdirilməsi istiqamətində təsirli tədbirlər həyata keçirirlər.

Nəzərə alınmalıdır ki, Azərbaycanda əhalinin 1,5 milyon nəfərdən çoxu aqrar sahədə çalışır. «Məşğulluq haqqında» Qanuna əsasən, torpaq payı olan vətəndaşlar məşğul əhali kateqoriyasına aid edilməlidirlər. Lakin hazırda həmin vətəndaşlar vergi və digər ödənişlərə cəlb olunmadıqlarından, respublikada muzdla işləyənlərin sayı nisbətən aşağıdır. Bu gün aqrar sektorla yanaşı, tikinti sektorunda da qeyri-leqal işləyənlərin sayı çoxluq təşkil edir.

***- Məşğulluğun təminatına xidmət edən məqsədli dövlət proqramlarının əhəmiyyəti barədə nə deyə bilərsiniz?***

- İnkişafyönümlü hər bir dövlət proqramının Dövlət Məşğulluq Xidmətinə də birbaşa aidiyyəti var. Son 10 ildə qəbul olunmuş «2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı», «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı», «Azərbaycan Respublikasının Məşğulluq (2006-2015-ci illər) Strategiyası», «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü

illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı», «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı», «Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı» və digər sənədlər işsizliyin səviyyəsinin azaldılması baxımından əhəmiyyətli olub. Regionların sosial-iqtisadi inkişafına xidmət edən dövlət proqramları yeni iş yerlərinin yaradılmasında mühüm rol oynayıb. Nəticədə 2003-cü ildən respublikada 1 milyonadək iş yeri açılıb və bu proses davam edir.

«Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı» ilə qarşıya qoyulan əsas vəzifələrdən biri də əhalinin layiqli iş yerləri ilə təmin olunmasıdır. Layiqli iş yeri dedikdə ,yüksək əməkhaqqı və işləmək üçün maksimum əlverişli şəraitin yaradılması nəzərdə tutulur. Əvvəllər məqsəd, sadəcə, işsizliyin aradan qaldırılması üçün çoxsaylı iş yerləri açmaqdan ibarət idisə, indiki mərhələdə daha çox yüksək gəlirli, normal şəraitli iş yerlərinin açılması başlıca hədəf kimi qarşıya qoyulub.

Hazırda əsas problemlərdən biri də işsizlər arasında gənclərin və 50 yaşından yuxarı vətəndaşların sayının yüksək olmasıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi hazırda qanunvericiliyə müəyyən dəyişikliklərin edilməsi ilə bağlı təkliflər hazırlayır. Həmin təkliflərin bir qismi gəncləri və 50 yaşından yuxarı vətəndaşları işə götürən özəl müəssisələr üçün güzəştlərin tətbiqini nəzərdə tutur. Yəni dövlət özəl müəssisələrdə bu qəbildən olan vətəndaşları işə götürmək üçün ciddi maraq yaratmalıdır.

***- 2012-ci ildə Bakıda və müxtəlif regionlarda keçirilmiş əmək yarmarkalarının iqtisadi səmərəsi nədən ibarətdir?***

- Əmək yarmarkalarının təşkili işaxtaranların işəgötürənlərlə canlı təmasının yaradılması baxımından son dərəcə əhəmiyyətlidir. Çoxlu sayda boş iş yerləri olan, müvafiq sahələr üzrə mütəxəssislər axtaran müəssisələr yarmarkalarda iştiraka dəvət olunurlar. İşsiz vətəndaşlar bu yarmarkalarda işəgötürənlərlə birbaşa əlaqə yaradır, onların şərtləri ilə tanış olurlar. Bir işsiz eyni zamanda 50-dək müəssisənin təklif etdiyi iş yerləri arasında seçim aparmaq, daha sərfəlisini seçmək imkanı əldə edir. Eyni zamanda, müəssisə və şirkətlər daha peşəkar mütəxəssisləri işə cəlb etmək, ehtiyat kardrlar barədə məlumat bankı yaratmaq imkanına malik olurlar.

2012-ci ilin yanvar-avqust aylarında təkcə Bakı şəhərində 88 mini-yarmarka keçirilib. Bu yarmarkalarda 2980 vakant iş yerləri üzrə 1764 nəfərə göndəriş verilib, onlardan 871 nəfəri müvafiq işlə təmin olunub.

***- Respublikanın əmək bazarında hansı mütəxəssislərə daha çox ehtiyac duyulur?***

- Əmək bazarında ali təhsilli mütəxəssislər üzrə kifayət qədər kadr ehtiyatı mövcuddur. Açıq deməliyik ki, bu gün daha çox texniki peşə sahələrində bilik və bacarığı olan kadrlara ehtiyac var. Məsələn, tornaçı, qaynaqçı, dülgər, elektrik, santexnik, mexanik, eləcə də tikinti sektoru üzrə digər mütəxəssislər yüksək gəlirli iş yerləri ilə daha tez təmin olunurlar.

Onu da bildirim ki, hazırda Bakı, Sumqayıt, Naxçıvan, Gəncə və Mingəçevir şəhərlərində əmək birjaları fəaliyyət göstərir. Birjalar vasitəsilə insanlar müvəqqəti işlərlə təmin olunurlar. 2012-ci ilin ötən 8 ayında həmin birjalara müraciət etmiş 2663 nəfər müvafiq işlərə göndərilib. Əsasən, daimi işləmək istəməyənlər - pensiyaçılar, əlillər, əmək qabiliyyəti aşağı olanlar həmin birjalara müraciət edirlər.

Təəssüf ki, işçi axtaranlar bu gün əmək birjalarına deyil, qara bazarlara, dəllallara, təsadüfi adamlara müraciət edirlər. Halbuki biz onları daha peşəkar və bacarıqlı işçilərlə təmin edə bilərik.

***- Ümumiyyətlə, Dövlət Məşğulluq Xidmətinə boş iş yerləri barədə məlumatların verilməsi səviyyəsi Sizi qane edirmi?***

- «Məşğulluq haqqında» Qanuna əsasən, işəgötürənlər boş iş yerləri haqqında məşğulluq orqanlarına məlumat verməlidirlər. Etiraf etməliyik ki, hazırda Dövlət Məşğulluq Xidmətinə belə məlumatların verilməsi səviyyəsi olduqca aşağıdır. Bununla yanaşı, xidmətin özünün kadr potensialı, strukturu, iş şəraiti həmin məlumatların əldə edilməsinə imkan vermir. Xidmətin kadr potensialı aşağı səviyyədədir - hər rayonda cəmi 3 işçimiz var. Ona görə də bütün müəssisələrdə boş iş yerləri haqqında məlumatları əldə etmək imkanımız yoxdur.

Boş iş yerləri haqqında Dövlət Məşğulluq Xidmətinə məlumatlar verməyən müəssisə və şirkətlərə tətbiq edilən cərimələrin məbləği də aşağıdır. Əksər hallarda müəssisə və şirkətlər boş iş yerlərinə işçi götürüb vergi və sosial ödəmələr etməkdənsə, az miqdarda cəriməni ödəməyə daha meyilli olurlar. Bu səbəbdən də biz həmin cərimələrin artırılması ilə bağlı müvaviq təkliflər hazırlayaraq Nazirlər Kabinetinə təqdim etmişik.

***- 2012-ci ilin müvafiq dövründə neçə nəfər işsiz vətəndaşın müavinət üçün müraciətinə müsbət cavab verilmişdir? Ümumiyyətlə, bu sahədəki narazılıqları nə dərəcədə əsaslı sayırsınız?***

- Bu ilin yanvar-avqust aylarında Dövlət Məşğulluq Xidmətinə 32440 nəfər müraciət edib, onlardan 18878 nəfəri müvafiq işlə təmin olunub. 2917 nəfərə işsizlik statusu verilib, 3219 nəfər işsizlik müavinəti alıb. Həqiqətən də bəzən müavinət almayan işsiz vətəndaşlar müəyyən narazılıqlar edirlər. Lakin nəzərə alınmalıdır ki, hazırda bizə ayrılan illik vəsait bütün işsiz vətəndaşlara müavinətlərin təyin edilməsinə imkan vermir. Məsələn, il ərzində müavinət təyin ediləcək işsizlərin sayının 4000 nəfər olması planlaşdırılsa da sonradan bu say obyektiv səbəblərdən aşağı düşür. Bunun bir neçə səbəbi var: əvvəla, respublikada orta aylıq əməkhaqqı sürətlə yüksəlir. İkincisi, biz bəzən yüksək maaşlı yerlərdən ixtisara düşənlər üçün də müavinət verməli oluruq. Yəni qanunvericiliyə görə, işsiz vətəndaş əvvəlki iş yerindən aldığı məvacibin 70%-dək məbləğində müavinət almalıdır. Belə olan halda, büdcədəki vəsait nəzərdə tutduğumuz sayda işsizə müavinət verilməsinə kifayət etmir. Digər tərəfdən, «Məşğulluq haqqında» Qanuna əsasən, 3 ildən çox işsiz olan vətəndaşa işsizlik statusu təyin edilə bilməz.

Onu da bildirim ki, hazırda təklif olunan iş yerləri və əməkhaqqı ilə qane olmayan işsizlər də çoxdur. 150-200 manatlıq iş yerləri bir çox insanları qane etmir. Nəticədə belələrinə, o cümlədən torpaq payı olan vətəndaşlara işsiz statusu verilmir.

S.MUSTAFAYEV